AZƏRBAYCAN DƏMİRYOLÇUSU

Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur | İyul 2022-ci il 7 (7045) | İndeks 0006 Qiymətі 40 qəpik

Təsisçilər: "Azərbaycan Dəmir Yolları" Qapalı Səhimdar Cəmiyyəti və Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

## "Bu dəmir yolu üç ölkəni və qitələri birləşdirir"

**"Sizə nəqliyyat sahəsində cərəyan edən son hadisələr haqqında məlumat vermək istərdim. Bu, bizim daxili məsələmiz deyil. Çünki bizim regionda təşəbbüskarı olduğumuz bu layihələr artıq genişlənir və qlobal layihələrə çevrilir.**

Biz tərəfdaşlarımız – Gürcüstan və Türkiyə ilə dəmir yolunun inşasının təşəbbüskarı olduq. Bu dəmir yolu üç ölkəni və qitələri birləşdirir. Biz qarşılıqlı ticarət dövriyyəmizi bu dəmir yolu xətti olmasa belə artıra bilərdik. Ancaq bu dəmir yolu Asiyanı Avropa ilə birləşdirməyə lazımdır. Bu, ən qısa nəqliyyat marşrutudur. Ola bilsin ki, qiymət baxımından bu, ən ucuz marşrut deyil və biz tariflərin aşağı salınması üzərində çalışırıq. Lakin bu, ən qısa marşrutdur və yüklərinin qısa biz zamanda nəql edilməsinə üstünlük verən şirkətlər bu nəqliyyat şəbəkəsindən mütləq istifadə edəcəklər.

Şərq-Qərb nəqliyyat dəhlizi əməkdaşlıq və biznes dəhlizidir. Bu layihə artıq Azərbaycanda və qonşu ölkələrdə minlərlə yeni iş yeri yaratmaqdadır və ölkələrimizə böyük mənfəət gətirəcəkdir. Əlbəttə, bizim tranzit ölkə kimi də rolumuz artacaqdır.

Bu layihəni ilhamlandıran enerji şaxələndirilməsinin təmin edilməsi idi. Bir daha qeyd edim ki, biz bu layihəni gürcü və türk qonşularımızla birlikdə icra etməyə başladıq. Hazırda o, genişlənir və artıq bir sıra neft və qaz kəmərlərinin inşası nəticəsində çoxlu sayda ölkələr bu prosesdə iştirak edirlər.

İlk layihə Azərbaycanı Qara dəniz limanları ilə birləşdirən neft kəməri idi. Növbəti kəmər bizi Aralıq dənizindəki liman ilə birləşdirdi. Nəhayət, növbə qazpaylayıcı infrastrukturun yaradılmasına çatdı ki, bu da uğurla həyata keçirilir.

Artıq 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Albaniya Cənub Qaz Dəhlizinin üzvüdür. Daha üç Balkan ölkəsi – Xorvatiya, Monteneqro və Bosniya-Herseqovina isə layihənin növbəti mərhələsində bizim tərəfdaşlarımız olacaq.

Bu, həqiqətən də XXI əsrin layihəsidir və onun dəyəri 40 milyard dollardır. Bu layihə Azərbaycan tərəfindən irəli sürülüb və tərəfdaşlarımız, Avropa Komissiyası tərəfindən dəstəklənib. Hətta son iki il ərzində neftin qiymətlərinin aşağı olduğu bir vaxtda bu layihə uğurla həyata keçirilir və onun icrası ilə bağlı bizim maliyyə öhdəliklərimizin ödənişi baxımından heç bir gecikmə olmamışdır. Sərmayələr Xəzər dənizində yerləşən nəhəng qaz yatağı ilə bağlıdır və bu, Bakıdan İtaliya sahillərinə qədər uzanan, bir-biri ilə əlaqəli 3 kəmərdən ibarət vahid bir sistem layihəsidir".

***(16 mart 2017-ci ildə V Qlobal Bakı Forumunun açılışındakı nitqindən)***

***

"Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon, ondan sonrakı mərhələdə 17 milyon, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaq.

***(30 oktyabr 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimindəki çıxışından)***

***



Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı-Tbilisi-Qars Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə - Türkiyə və Gürcüstan ilə uğurla icra etdik. Digər qonşularımızla - Rusiya və İran ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır.

***( 2020-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə yekun nitqindən)***

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: “Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır”*



**“Keçən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı memorandum imzalanmışdır. Eyni zamanda, o memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa var. Ona görə biz bu işlərə də tezliklə başlamalıyıq. Hər halda, Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər.**

Eyni zamanda, avtomobil körpülərinin və dəmir yolu körpülərinin inşası da nəzərdə tutulur. Əlbəttə, bu, Zəngəzur dəhlizinin açılmasını inkar etmir. Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır. Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi. Əgər bu gün həm limana, həm dəmir yollarına, həm hava limanlarına, avtomobil yollarına və digər infrastruktura bu böyük investisiyalar qoyulmasaydı, Azərbaycan, əlbəttə ki, yeni yaranan bu imkanlardan məhrum ola bilərdi. Ancaq, əksinə, biz bu gün öz nəqliyyat infrastrukturumuzu maksimum işə sala bilərik. Gəmiqayırma zavodunda yeni yük gəmiləri, tankerlər inşa edilir. Yəni, bütün bunlar

vaxtında atılmış addımlardır. Əgər biz gəmiqayırma zavodunu inşa etməsəydik, bu gün bu imkanlardan istifadə edə bilməzdik. İndi isə biz heç kimdən asılı deyilik. Nə qədər istəsək, o qədər də bərə, tanker, yük gəmisi inşa edə bilərik və Xəzər üzərindən yükdaşımaların həcmini bu il artıracağıq və gələn il daha da artıracağıq.

Onu da bildirməliyəm ki, 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır. Yəni, biz sürətlə gedirik. Dörd və altı zolaqlı avtomobil yolu da çəkilir.

Mən bir məsələyə də diqqət yetirmək istərdim. Ermənistan da görməlidir ki, o, bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Çünki 10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir. Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq. Onlar bunu bilməlidirlər, vaxtı uzatmamalıdırlar. Onsuz da biz istədiyimizə gec-tez nail olacağıq. Daha yaxşı olar ki, onlar özləri də bir az cəld tərpənsinlər. Yoxsa yenə də dalan kimi qalacaqlar.

Digər infrastruktur layihələrinə gəldikdə isə deyə bilərəm ki, Bərdə-Ağdam dəmir yolunun inşası bu il davam edir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Bununla paralel olaraq, Ağdamda və Füzulidə dəmir yolları, vağzalları da inşa edilməlidir. Layihələr təqdim edilməlidir və aidiyyəti qurumlar tərəfindən nəzərdən keçirilməlidir və mənə təqdim olunmalıdır.

Nəqliyyat infrastrukturu ilə bağlı digər məsələ Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir. Bu da bu ilə nəzərdə tutulur. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. O ki qaldı, Laçın Beynəlxalq Hava Limanının inşasına, bunu biz 2024-cü ilə planlaşdırırıq. Orada işlərin həcmi çox böyükdür, həm dağlar partladılmalıdır, həm ərazi düzəlməlidir və orada doğrudan da çox böyük torpaq işləri var. Amma o da mütləq olacaq.

Avtomobil yollarının çəkilişinə gəldikdə, bu il Naftalandan Talış kəndinə qədər yollar tam istismara verilməlidir. Bu, eyni zamanda, Naftalanı Suqovuşanla birləşdirəcək. Hər iki yaşayış yeri turizm üçün çox əlverişlidir. Naftalan artıq beynəlxalq turizm mərkəzinə çevrilib və Suqovuşana oradan məsafə çox qısadır. Suqovuşanda da turizm imkanları bu yaxınlarda təqdim edildi - həm turizm, həm yaşayış, həm idman. Yəni, bu yolun çox böyük əhəmiyyəti var və biz Suqovuşana həm Naftalan istiqamətindən, həm də Tərtər istiqamətindən rahatlıqla gedə biləcəyik. Ona görə bu il bu yol istismara verilməlidir.

Laçın şəhərindən yan keçən yeni alternativ yolun istifadəyə verilməsi də bu ilə planlaşdırılır. Bu yolun da çox böyük əhəmiyyəti var və biz bunu artıq bu il istismara verməliyik. Bu il istifadəyə veriləcək yolların arasında Füzuli-Hadrut avmobil yolu, Qubadlı-Eyvazlı kəndi yolu və digər yollar var.

O cümlədən Kəlbəcər və Laçın rayonlarında hərbi əhəmiyyətli yolların çəkilişi davam etdiriləcək. Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yollar çəkilib . Yəni, Azərbaycan-Ermənistan sərhədinə qədər bu yollar çəkilib.

İndi sərhəddə rahat xidmət etmək mümkündür. Davam edən layihələrlə bağlı Azərbaycan ictimaiyyətini məlumatlandırmaq istəyirəm. Deməli, avtomobil yolları arasında Bərdə-Ağdam avtomobil yolunda işlər çox sürətlə gedir, Kəlbəcər-Laçın avtomobil yolu və təxminən 4 kilometrlik tunel inşa edilir. Xudafərindən Qubadlıya, oradan isə Laçına gedən magistral yol inşa edilir. Cəbrayıl-Hadrut yolu inşa olunur. Zəfər yolu açıldı, amma indi Füzuli-Şuşa 4 cərgəli magistral yol, Horadiz-Ağbənd, Ağdam-Füzuli yolları çəkilir. Ən vacib yollardan biri Toğana-Kəlbəcər avtomobil yoludur, çünki bu yol və 12 kilometrlik tunel çəkiləndən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq, biz rahat tunellə keçəcəyik. Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi bu il davam etdirilir”.

**(Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki yekun nitqindən)**



## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: “Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir”*

“Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir”

“Otuzillik işğal dövrü erməni xalqını heç də xoşbəxt etmədi. Əksinə, onlar dünya ictimaiyyətinin gözündə işğalçı və təcavüzkar oldular. Müharibə başa çatdıqdan sonra artıq hər kəs görə bilər ki, onlar işğal dövründə oraları necə viran qoyublar.

Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir. Əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgə yaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, vacib məsələdir, Azərbaycan bunu tələb etməyə haqqı var. Birincisi, Ermənistan hökuməti müvafiq Bəyanatı imzalayıb. İkincisi, Azərbaycan müharibədə qalib gəlib və işğaldan əziyyət çəkmiş ölkə olaraq bizim bunu tələb etməyə mənəvi haqqımız var.

Diqqətinizi cəlb etmək istədiyim digər bir məsələ Azərbaycanda yaşayan ermənilərlə bağlıdır. Mənim, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri Paşinyanın Brüsseldə baş tutmuş üçtərəfli görüşümüzün nəticələrinə dair cənab Şarl Mişel tərəfindən yayılmış bəyanatda aydın şəkildə deyilir ki, Qarabağda yaşayan erməni əhalisinin də hüquqları və təhlükəsizliyi nəzərə alınacaq. Biz bunu tam şəkildə dəstəkləyirik. Azərbaycanın bütün əhalisinin hüquq və təhlükəsizliyi Konstitusiya ilə təmin edilir. Azərbaycan çoxmillətli ölkədir və erməni əhalisi Azərbaycanın heç də ən böyük milli azlığı deyil. Yəni, bizim Konstitusiyamıza görə, bütün millətlərin nümayəndələri bərabər hüquqa malikdir, o cümlədən illər boyu Azərbaycanda yaşayan ermənilər. Bəli, hüquqlar və təhlükəsizlik məsələləri tərəfimizdən təmin ediləcək. Lakin, təəssüflər olsun ki, biz Ermənistan hökuməti tərəfindən dırnaqarası Dağlıq Qarabağın statusu ilə bağlı fikirlərin səsləndirilməsinin şahidi oluruq. Bu, tamamilə səmərəsizdir və Ermənistanın özü üçün təhlükəlidir. Dağlıq Qarabağ mövcud deyil. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edilib. Bizim ərazimizdə belə bir inzibati struktur yoxdur. Bu səbəbdən, dırnaqarası statusla bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq. Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb. Status məsələsinin gündəmə gətirilməməsi ilə bağlı şifahi razılıq var idi. Təəssüflər olsun ki, bu, baş verir və bunun çox ciddi nəticələri ola bilər. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altına qoyacaqsa, Azərbaycan üçün Ermənistanın ərazi bütövlüyünü sual altına qoymaqdan başqa çıxış yolu olmayacaq. Tarixi nöqteyi-nəzərdən bizim bunu etməyə hüququmuz var. Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşdirilməsindən altı ay sonra sovet hakimiyyəti Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirdi. Yəni, Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etməyə cəhd edəcəksə, nə üçün azərbaycanlılar Qərbi Zəngəzurda özləri üçün status tələb etməsin? Həmin ərazilərin əhalisi tamamilə azərbaycanlılardan ibarət olub. Bu yanaşma çıxılmaz vəziyyətə gətirib çıxaracaq və hesab edirəm ki, Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir.




Sizin bilməyinizi istədiyim digər bir məsələ ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə fərziyyələrlə bağlıdır. Minsk qrupu 1992-ci ildə təsis edilib və onun mandatı münaqişənin həllinə yardım etməkdən ibarət olub. Lakin faktiki olaraq onun fəaliyyəti sıfırla nəticələnib. Təsəvvür edin ki, ATƏT-dən mandat almış bu qrup 28 il ərzində heç bir nəticə əldə etməyib. Azərbaycan Qarabağ münaqişəsini həll etdikdən sonra Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur. Hesab edirəm ki, hər kəs bunu anlayır. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra aydındır ki, Minsk qrupunun üç həmsədr ölkəsi bir araya gələ bilməz və biz bununla bağlı artıq mesajlar almışıq – bu qrupun həmsədrlik institutu fəaliyyət göstərməyəcək. Yəni, Minsk qrupu funksiyasını itirib. Bunu yenidən dirçəltmək cəhdləri də səmərəsizdir. Düşünürəm ki, bunun ən yaxşı yolu Minsk qrupuna əlvida deməkdir. Təşəkkür edirik və əlvida deyil, yalnız əlvida demək olar. Yəni, 30 il kifayətdir, təqaüdə çıxmaq vaxtıdır.

Bizim mövqeyimiz ondan ibarətdir ki, Minsk qrupu ilə bağlı Ermənistanda və ya digər ölkədə hər hansı fərziyyə Azərbaycanda ancaq qıcıq doğurur. Biz münaqişəni həll etdik, Minsk qrupu tərəfindən hazırlanmış və Madrid prinsipləri adlandırılan prinsiplər öz həllini tapıb və artıq biz Ermənistanla münasibətləri normallaşdırmaq, sülh sazişi imzalamaq üzərində çalışmalıyıq. Hesab edirəm ki, hər iki tərəf xoş məramla çalışsa, biz sülh sazişini bir il ərzində imzalaya bilərik. Daha sonra Qafqaza sülh gələcək. Bizim Qafqazla bağlı baxışımız inteqrasiya və əməkdaşlıqdan ibarətdir və Azərbaycan bir neçə dəfə buna start verməyi, ilkin addımları atmağı təklif edib. Biz bu məsələ ilə bağlı gürcüstanlı həmkarlarımızla məsləhətləşmə aparmışıq və Gürcüstan hökuməti də bu ideyanı dəstəkləyir – Gürcüstanda Azərbaycan, Gürcüstan və Ermənistan xarici işlər nazirləri səviyyəsində üçtərəfli görüşün keçirilməsi və dialoqun başlanılması. Təəssüflər olsun ki, Ermənistan bundan imtina edir. Bunun səbəbini bilmirəm və buna qaneedici izahat tapa bilmirəm. Bildiyimə görə buna bənzər təşəbbüslər bəzi Avropa təsisatları tərəfindən də irəli sürülüb. Lakin yenə də imtina edilib. Ermənistan Cənubi Qafqazda sülh istəmirsə, istədiyi nədir? Onlar növbəti müharibə istəyirlərsə, bu, onlar üçün fəlakət olacaqdır və onlar bunu yaxşı anlayır. Hesab edirəm ki, Ermənistan hökuməti və oradakı revanşist qüvvələr aydın şəkildə dərk edirlər ki, bu, onların dövlətçiliyinin sonu olacaq. Beləliklə, biz Ermənistandan aydın cavab almalıyıq ki, onlar Cənubi Qafqazı necə görürlər? Bizim mövqeyimiz aydındır, Gürcüstan hökumətinin də mövqeyi aydındır ki, biz dialoq və təmaslara start verməliyik. Ancaq, əlbəttə ki, Ermənistansız bu, mümkün olmayacaq. Xüsusilə, cari vəziyyəti nəzərə aldıqda, regional əhəmiyyətli məsələlərin müzakirəsinə ehtiyac var - ətraf mühitin qorunması, Azərbaycan ərazisində təbiətin ciddi çirklənməsinə səbəb olan transsərhəd çaylar, nəqliyyat sahəsində əməkdaşlıq, tranzitlə bağlı yeni imkanlar. Nəzərə almaq lazımdır ki, Azərbaycan Zəngəzur dəhlizinin öz ərazisindən keçən hissəsinin yekunlaşdırılmasına yaxındır. Yeni marşrutlar və enerji təhlükəsizliyi də bu sıradadır. Hesab edirəm ki, işə başlamağın vaxtıdır. Biz 30 il itirdik və erməni işğalı olmasa idi, düşünürəm ki, Cənubi Qafqaz bu gün daha müasir, dinamik və daha geniş iqtisadi potensiala malik region ola bilərdi”.

**(16 iyun 2022-ci ildə IX Qlobal Bakı Forumunun açılış sessiyasındakı nitqindən)**

## *Azərbaycan, Qazaxıstan və Türkiyə respublikalarının xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin ilk üçtərəfli görüşü keçirilib*

**İyunun 27-də Bakıda Azərbaycan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Türkiyə Respublikasının xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin ilk üçtərəfli görüşü keçirilib.**




AZƏRTAC xəbər verir ki, üçtərəfli görüşün yekununda birgə Bakı Bəyannaməsi imzalanıb. Qeyd olunub ki, Bakı Bəyannaməsi həm üç ölkə arasında nəqliyyat və kommunikasiya sahəsində işbirliyini gücləndirəcək, həm də ölkələrimizin tranzit potensialının genişləndirilməsinə töhfə verəcək. Üç ölkənin birgə ardıcıl səyləri ilə yeni yaradılan üçtərəfli format həm regional, həm də daha geniş səviyyədə təhlükəsizliyin, sabitliyin və əməkdaşlığın gücləndirilməsi baxımından effektiv mexanizm kimi özünü doğruldacaq.

Görüşdə çıxış edən Azərbaycanın Respublikasının xarici işlər naziri Ceyhun Bayramov üç qardaş ölkənin xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin birinci görüşünün əhəmiyyətindən danışıb. Qeyd edilib ki, bu görüş həm ikitərəfli, həm də çoxtərəfli platformalarda yüksək səviyyədə tərəfdaşlıq münasibətlərini bölüşən üç ölkənin nəqliyyat və bağlantılar sahəsində əməkdaşlığının daha da genişləndirilməsi imkanlarının müzakirəsinə şərait yaradıb.

"Müzakirələr zamanı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişaf etdirilməsinə, bu istiqamətdə mövcud olan yük daşımalarına diqqət yetirdik. Mövcud problemlər, dar boğazların aradan qaldırılması istiqamətində bu coğrafiyada nəqliyyat və kommunikasiya əməkdaşlığımızın genişləndirilməsi istiqamətlərinə xüsusi nəzər saldıq, digər tərəfdən çox maraqlı yeni dəyərli fikirlər və təkliflər səsləndirildi", - deyə xarici işlər naziri Ceyhun Bayramov diqqətə çatdırıb.

O bildirib ki, Azərbaycan, Türkiyə və Qazaxıstan arasında növbəti üçtərəfli görüş Qazaxıstanda keçiriləcək.

Sonra çıxış edən Qazaxıstanın xarici işlər naziri Muxtar Tleuberdı deyib ki, Orta Dəhlizin rolunu gücləndirmək üçün Transxəzər vasitəsilə tranzit daşımaların daha da inkişafı və asanlaşdırılması məqsədilə işlər görüləcək. O, "Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu da daxil olmaqla, Orta Dəhlizə əlavə həcmdə yüklərin cəlb edilməsinə yönəlmiş əməkdaşlıqda əldə edilən nailiyyətlərin böyük əhəmiyyətə malik olduğunu vurğulayıb".

Qazaxıstanın xarici işlər naziri bildirib ki, nəqliyyat və informasiya-kommunikasiya infrastrukturlarının, o cümlədən BTQ dəmir yolu xəttinin inkişafı ilə qarşılıqlı əlaqələrin daha da intensivləşdirilməsi önəmlidir.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxışında üç qardaş ölkə arasında əlaqələrin inkişafının region üçün əhəmiyyətindən danışaraq deyib: "Üçtərəfli görüşün əhəmiyyəti olduqca vacibdir. Bu cür görüşlər yeni imkanlar yaradır. Azərbaycan və Türkiyə arasında bütün sahələr üzrə əlaqələr inkişaf etdirilir. Azərbaycanla enerji sahəsində imkanları daha da genişləndirmək istəyirik".

Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdıran Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində türkün gücünü bütün dünyaya göstərdi.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif, "Bir pəncərə" prinsipi tətbiq olunur.

Hazırda qlobal təhlükəsizliyə, sabitliyə və iqtisadi inkişafa qarşı təhdidlərin artdığı bir şəraitdə üç ölkənin nəqliyyat və bağlantılar sahəsində əməkdaşlığının gücləndirilməsi regional səviyyədə risklərin və çağırışların qarşısının alınması və azaldılması baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycan, Qazaxıstan və Türkiyə arasında sıx ikitərəfli əməkdaşlıq mövcuddur, habelə bu dövlətlər regional əməkdaşlıq kontekstində, o cümlədən Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər regional təşkilatlarda qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirirlər. Nəqliyyat və kommunikasiya sahələri ölkələrimiz arasında regional iqtisadi əməkdaşlığın təməl daşlarından biridir.

Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən əlverişli coğrafi mövqe sözügedən üç dövləti Avropa ilə Asiyanı birləşdirən əsas tranzit ölkələri kimi gündəmə gətirir. Azərbaycan, Qazaxıstan və Türkiyə, həmçinin Xəzər dənizi - Qara dəniz əməkdaşlığının gücləndirilməsində əsas rol oynayırlar. Bu baxımdan həmin ölkələr arasında, habelə dövlətlərin ərazilərindən keçməklə ticarət potensialından tam istifadə edilməsi üçün effektiv nəqliyyat və kommunikasiyanın olması vacibdir.

Nəqliyyat bağlantısı məsələsi Azərbaycanın milli iqtisadi inkişaf gündəliyində hər zaman mühüm yer tutub. Magistral avtomobil yolları, dəmir yolu və sərhəd infrastrukturu, eləcə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı artan tranzit axınını qarşılamaq üçün səmərəli imkanlar yaradır. Ölkələrimizin təşəbbüsü və dəstəyi ilə tranzit imkanlarının artırılmasına və hər üç ölkə tərəfindən tranzit daşımalarda fəal istifadə olunmasına yönəlmiş beynəlxalq nəqliyyat və kommunikasiya infrastrukturu layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi həyata keçirilib.

Hər üç dövlət tranzit potensialının artırılmasında "Transxəzər Şərq-Qərb Orta Dəhliz" - Azərbaycan, Qazaxıstan və Türkiyə ərazilərindən keçən multimodal nəqliyyat marşrutuna xüsusi önəm verir. Orta Dəhlizə əlavə həcmdə yüklərin cəlb edilməsi üçün birgə səylər gücləndirilməlidir. Məhz bu baxımdan üçtərəfli əməkdaşlıq çox aktualdır, çünki son regional hadisələr Asiya və Avropa arasında ticarət üçün Orta Dəhlizin əhəmiyyətinin artdığını açıq şəkildə nümayiş etdirir.

Orta Dəhlizin tərkib hissəsi kimi Zəngəzur dəhlizinin əhəmiyyəti və perspektivləri böyükdür. Bu dəhliz Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi çərçivəsində daha yaxşı bağlantını artırmaq potensialına malikdir və Qazaxıstan-Azərbaycan-Türkiyə nəqliyyat marşrutu üzrə daha qısa əlaqəni təmin edir. Dəhlizin tez bir zamanda işə salınmasını təmin etmək üçün bu prosesdə bütün tərəflərin öhdəliklərini yerinə yetirməsi vacibdir.



## Horadiz-Ağbənd dəmir yolu xətti layihəsinin ikinci mərhələsi üzrə işlər sürətlə davam edir



Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə yaradılmış işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupundan verilən məlumata görə, Horadiz-Ağbənd dəmir yolu xətti layihəsinin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin artıq 90 faizi tamamlanıb. Layihənin ikinci mərhələsi üzrə Soltanlı, Qumlaq, Həkəri və Mincivan stansiyalarını əhatə edən 55 km yolun tikintisi işləri sürətlə şəkildə davam etdirilir.

Hazırda Horadiz stansiyasından çıxan işçi qatarlar Mərcanlı, Mahmudlu, Soltanlı və Qumlaq stansiyalarına qədər sərbəst hərəkət edə bilir və tikinti üçün zəruri olan mal-materialın təminatı işini həyata keçirir.

Hazırkı mərhələdə 1 ədəd tunel, 15 ədəd körpü, 7 ədəd yolötürücü, 4 ədəd avtomobil alt keçidi, 161 ədəd suötürücü boru, 70 ədəd ehtiyat keçidinin tikintisi nəzərdə tutulub. Bu mərhələ üzrə torpaq işlərinin 28%-i, suni qurğuların 33%-i, dəmir yolunun üst quruluşu elementlərinin isə 20%-i tamamlanıb.



2021-ci ilin fevral ayında ölkə Prezidenti tərəfindən təməli qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 km təşkil edir. Tikinti işləri 3 mərhələdə həyata keçirilir. Birinci mərhələ Horadiz, Mərcanlı, Mahmudlu stansiyalarını əhatə etməklə 30 km, ikinci mərhələ Soltanlı, Qumlaq, Həkəri və Mincivan stansiyalarını əhatə etməklə 55 km, üçüncü mərhələ isə Mincivandan başlayaraq Bartaz və Ağbənd stansiyalarını əhatə etməklə 25,4 km təşkil edir.

Layihə çərçivəsində 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 ədəd tunel, 41 ədəd körpü, 3 ədəd qalereya, 7 ədəd yolötürücü və ümumilikdə isə 300-ə yaxın süni mühəndisi qurğunun tikintisi planlaşdırılır.

Dəmir yolu xəttinin tikintisi işləri minatəmizləmə prosesinə paralel aparılır və indiyə qədər trassa üzrə 82 km ərazi minalardan təmizlənib.

3-cü mərhələ Mincivan, Bartaz və Ağbənd stansiyaları arası 85-110,4 km-lik ərazini əhatə edir. Hazırda həmin ərazidə minalardan təmizləmə işlərinə hazırlıq görülür.

Layihə üzrə tikinti-quraşdırma işlərinin 2023-cü ildə yekunlaşdırılması nəzərdə tutulub.





# Türkiyə Dəmir İpək Yolu Layihəsində daha bir mərhələni keçib

Çindən İngiltərəyə qədər uzanacaq Dəmir İpək Yolu layihəsinin kəsişmə nöqtəsində yerləşən Türkiyə daha bir mühüm mərhələni keçib. Trend TurkicWorld-a istinadən xəbər verir ki, bunu Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Adil Karaismailoğlu deyib. Onun sözlərinə görə, logistika və nəqliyyatda istifadə ediləcək Halkalı-Kapıkule dəmir yolu Layihəsinin Çerkezköy-Kapıkule xəttində işlərə başlanılıb. "Layihəmiz tamamlandığında, Halkalı-Kapıkule arasında 229 kilometrlik, qoşa xətlərlə 200 km/saat sürətlə



sərnişin və yük daşımaq mümkün olacaq." -deyə Karaismailoğlu bildirib. O qeyd edib ki, bu layihə üçün Avropa İttifaqından 275 milyon avro vəsait ayrılıb ki, bu da bu zamana qədər ayrılan ən böyük məbləğdir. Daha sonra isə nazir İstanbulda iki beynəlxalq hava limanını birləşdirəcək yeni layihə haqqında məlumatda verib. "Gebze - Sabiha Gökçən Hava Limanı-Yavuz Sultan Səlim Körpüsü-İstanbul Hava Limanı - Halkalı Çatalca sürətli qatar xətti layihəmiz üçün hazırlıqlarımızda davam edir" - deyə Karaismailoğlu bildirib.

# BDU-nun tələbələri "Azərbaycan Dəmir Yolları" QSC-nin fəaliyyəti haqqında məlumatlandırılıblar



Bakı Dövlət Universitetinin (BDU) Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin strukturuna daxil olan qurumlara ekskursiya ediblər.

Bu barədə AZƏRTAC-a BDU-dan məlumat verilib. Bildirilib ki, tələbələr ekskursiyaya 28 May stansiyasından qatarla Biləcəri stansiyasına getməklə başlayıblar. Sonra Biləcəri yuyucu-buxarlayıcı stansiyasına və Biləcəri yeni lokomotiv deposuna gedərək "Azərbaycan Dəmir Yolları" QSC-nin fəaliyyəti haqqında məlumatlandırılıblar.

Ekskursiya zamanı dəmiryol nəqliyyatında həyata keçirilən innovativ proseslər və ətraf mühitə zərərli təsirlərin minimallaşdırılması məqsədilə icra olunan tədbirlər barədə yerində geniş məlumat verilib. Qeyd olunub ki, hazırda respublikanın dəmir yollarında yük və sərnişinlər əsasən elektrik dartı sistemində işləyən müasir hərəkət tərkibləri ilə daşınır ki, bu da ekoloji tarazlığın saxlanılmasına öz müsbət təsirini göstərməkdədir.

Sonda tələbələrin sualları cavablandırılıb







# ADY 6 təhsil müəssisəsi ilə əməkdaşlıq edəcək

"Azərbaycan Dəmir Yolları" QSC (ADY) ilə 6 təhsil müəssisəsi arasında əməkdaşlığa dair Razılaşma imzalanıb. Həmin təhsil müəssisələri Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Turizim və Menecment Universiteti, Azərbaycan Texnologiya Universiteti və Sənaye və Tenologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzidir.




Məqsəd Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına uyğun olaraq elm və sənaye sahələri arasında praktiki əlaqələrin genişləndirilməsinə, bu xüsusda birgə proqramların təşkilinə, tələbələr arasında biznes ideyalarının formalaşdırılmasına, innovativ təşəbbüslərin reallaşdırılmasına, dəmiryol nəqliyyatının sahələri üzrə araşdırmaların aparılmasına dəstək göstərməkdir.

Razılaşma sənədi universitet və peşə məktəblərinin elmi potensialından istifadə etməklə əlaqələrin qurulması və digər oxşar məsələlərlə bağlı birgə fəaliyyətin göstərilməsi, müştərək layihələrin icra edilməsi məqsədilə qarşılıqlı əməkdaşlığı tənzimləyir.

Razılaşmaya əsasən, müxtəlif ixtisaslar üzrə bakalavr və magistr səviyyələrində təhsil alan, ümumi orta müvəffəqiyyət göstəricisi yüksək olan tələbələr təcrübə proqramlarına cəlb ediləcək, istehsalat və elmi-tədqiqat təcrübələrində, o cümlədən seminar və təlimlərdə iştirakı təmin olunacaq. Əməkdaşlıq çərçivəsində peşəkar tədqiqatçıların aşkarlanması, onların təkliflərinin ADY-də müzakirəsi və istehsal sahələrində istifadə üçün seçilməsi məsələləri də nəzərdə tutulub.

Tədris planlarında və ixtisas fənlərinin sillabuslarının hazırlanması zamanı ADY-nin müvafiq rəyinin nəzərə alınması, bakalavr buraxılış, magistr dissertasiya işlərinə rəhbərlik etmək üçün ADY-nin nümayəndələrinin cəlb olunması da sənədin tərkib hissələrinə aiddir. Gələcəkdə məzunlar ADY-nin ehtiyat bazasına daxil ediləcək müvafiq vakant yerlərə təcrübəçi və işçi kimi cəlb olunacaq.

Bu əməkdaşlıq elmi-tədqiqat işlərinin və innovasiyaların tətbiqinin genişləndirilməsi, dəmir yolu sənayesinin inkişafı perspektivlərinə uyğun olan innovasiya xarakterli elmi nailiyyətlərin kommersiya istiqamətinə yönəldilməsi və formalaşmasına, startap layihələrin reallaşdırılmasını, bu sahədə ictimai iştirakçılıq sisteminin tətbiqi ilə bağlı birgə tədbirlərin həyata keçirilməsini təmin edəcək.

# Neft və neft məhsullarının Cənubi Qafqaz nəqliyyat dəhlizi ilə nəqli müzakirə olunub






Gürcüstanın Batumi şəhərində "Neft və neft məhsullarının Cənubi Qafqaz nəqliyyat dəhlizi ilə nəqli" adlı beynəlxalq konfrans keçirilib.

"ADY Express"dən AZƏRTAC-a bildirilib ki, tədbirdə son aylarda qeosiyasi dəyişikliklər nəticəsində neft və neft məhsullarının nəqli və logistikası ilə bağlı yaranan son vəziyyət müzakirə edilib. Konfrans zamanı Cənubi Qafqaz nəqliyyat dəhlizi vasitəsilə qeyd olunan məhsulların dünya bazarına çıxarılması məsələsi diqqət mərkəzində olub. Bununla bağlı dəhliz iştirakçılarının nəqliyyat, logistika və infrastruktur imkanları barədə geniş məlumat verilib və konfrans iştirakçılarına apardıqları görüşlərdə və danışıqlarda yeni kommersiya əlaqələri yaratmağa imkan yaradılıb.

Tədbir çərçivəsində xüsusi olaraq Qazaxıstan və Türkmənistan neft və neft məhsullarının nəqli və bu yüklərin aşırılması imkanları diqqət mərkəzində olub. Aparılan müzakirələrdə Xəzərdənizindəki Qazaxıstan, Türkmənistan və Azərbaycan limanlarının və neft terminallarının yükburaxma qabiliyyəti, onların imkanları, dəmir yollarının imkanları diqqət mərkəzində olub.

Tədbirdə "ADY Express" MMC-nin Logistika departamentinin rəhbəri Yusif Ramazanov çıxış edərək, Azərbaycan dəmir yolları vasitəsilə bu cür yüklərin nəqlinə dair ətraflı məlumat verərək, ümumiyyətlə ölkəmizin neft və neft məhsullarının daşınması ilə bağlı tranzit imkanları barədə danışıb.

Tədbir çərçivəsində iştirakçılar, həmçinin Orta Asiya-Qafqaz-Avropa/Qərb marşrutunun gələcək perspektivləri ətrafında geniş müzakirələr aparараq, logistika sahəsində əməkdaşlığın səmərəliyinin artırılması istiqamətində fikir mübadiləsi aparıblar.

# Nəqliyyat və rabitə üzrə Azərbaycan–Türkiyə işçi qrupunun ilk iclası olub

Bakı şəhərində nəqliyyat və rabitə üzrə Azərbaycan–Türkiyə işçi qrupunun birinci iclası keçirilib.

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovun və Türkiyə Respublikası nəqliyyat və infrastruktur nazirinin müavini Ömər Fatih Sayanın həmsədrlik etdiyi iclasda mülki aviasiya, avtomobil və dəniz nəqliyyatı, dəmir yolu və rabitə sahələrindən səlahiyyətli şəxslər iştirak ediblər.



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclas zamanı Bakı–Tbilisi–Qars dəmir yolu xəttinə və “Orta Dəhlizə” əlavə yük axınlarının cəlb edilməsi, Xəzər dənizində “Ro-Ro” daşımalarının səmərəliliyinin artırılması, eləcə də tranzit yüklərin daşınmasında daha çevik tənzimləmənin həyata keçirilməsi və daşıma proseslərinin asanlaşdırılması istiqamətində atılacaq birgə addımlar müzakirə olunub.

Tədbirdə Azərbaycan, Türkiyə və Qazaxıstan xarici işlər və nəqliyyat nazirlərinin cari ilin mayın 27-də Bakı şəhərində keçirilmiş birinci üçtərəfli görüşünün və imzalanmış Bakı Bəyannaməsinin əhəmiyyəti qeyd edilib.

İclasda Zəngəzur dəhlizinin regionda sülhə, stabilliyə və əməkdaşlığa töhfə verəcəyi qeyd edilərək dəhlizin davamı olacaq Qars–Naxçıvan dəmir yolu xəttinin tikintisinin vacibliyi vurğulanıb.

Tədbir zamanı, həmçinin Azərbaycan və Türkiyə arasında fiber-optik infrastrukturun inkişafı, “5G” yeni nəsil mobil rabitə texnologiyaları, kibertəhlükəsizlik, “ağıllı” nəqliyyat sistemləri üzrə əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılıb. Qeyd olunan sahələrdə təcrübə mübadiləsi və birgə təlimlərin təşkilinə dair razılığa gəlinib.

İclasın sonunda nəqliyyat və rabitə üzrə Azərbaycan–Türkiyə işçi qrupunun birinci iclasının Protokolu imzalanıb.

# İran mətbuatı Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısını diqqətdə saxlayıb




İran mətbuatı Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının iyunun 29-da Aşqabadda keçirilən VI Zirvə Toplantısını diqqətdə saxlayıb.

AZƏRTAC xəbər verir ki, İranın İRNA, Mehr, Fars və digər nüfuzlu saytları Zirvə görüşü çərçivəsində Prezidentlərin ikitərəfli görüşlərinə xüsusi maraq göstərib.

İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüşlərinə diqqət çəkən mətbuat yazır: “Bu görüş dövlətlərarası münasibətlərin inkişafda olduğunu göstərir. Prezidentlərin birinci görüşü də Aşqabadda baş tutub. İran və Azərbaycan Prezidentlərinin ötən ilin noyabrında Türkmənistanın paytaxtında keçirilən görüşündə iki dövlət arasında qaz tranziti haqqında Saziş imzalandı. Bu saziş hər iki dövlətin maraqlarını əks etdirir. Türkmənistanın 1,5 milyard kubmetr qazı İrandan tranzit olaraq Azərbaycana ixrac edilir”.

Mətbuat qeyd edir ki, İran ilə Azərbaycan arasındakı iqtisadi sahədə əməkdaşlıq əlaqələri tərəflər üçün faydalıdır. İran və Azərbaycan arasında münasibətlərin potensialı hazırda mövcud olandan daha çoxdur.



# “Şuşa ili” çərçivəsində Parisdə “Erməni separatistləri tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri” sənədli filminin təqdimatı olub





Azərbaycanın Fransadakı səfirliyinin Paris şəhərindəki Mədəniyyət mərkəzində “Şuşa ili” çərçivəsində “Erməni separatistləri tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri” adlı sənədli filminin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, filmin təqdimatından əvvəl Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, Fransanın sabiq deputatı Jerom Lamber və filmin rejissoru Anastasiya Lavrina çıxış ediblər.

Rəhman Mustafayev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun sayəsində torpaqlarımızın erməni işğalından azad edilməsindən, erməni separatistləri tərəfindən törədilmiş dağıntılardan, bu ərazilərin bütünlüklə minalanmasından danışıb. Bildirilib ki, ermənilər işğal etdikləri ərazilərdə Azərbaycanın tarixi, mədəni və dini abidələri ilə yanaşı, xristian abidələrini də dağıdıblar. Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı ərazilərimizdə yerlə-yeksan etdiyi mədəni sərvətlərdən söz açan səfir diqqətə çatdırıb ki, bu müddət ərzində Qarabağ bölgəsində Azərbaycan mədəniyyətinin bütün izləri tamamilə məhv edilib. Ermənistan ərazisində də Azərbaycana məxsus mədəniyyət və dini abidələrin məhv edildiyini bildirən Rəhman Mustafayev bildirib ki, UNESCO-un texniki missiyası bu zərəri qiymətləndirmək üçün çoxdan Azərbaycana getməli idi. Ancaq təəssüf olsun ki, hələ də UNESCO texniki missiyası nə azad olunmuş ərazilərə, nə də Ermənistana göndərilməyib.

Səfir qeyd edib ki, “Erməni separatistləri tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri” sənədli filmi erməni separatistlərinin xristian kilsələrini necə dağıtdığını əyani şəkildə əks etdirir.

Jerom Lamber 44 günlük Vətən müharibəsindən sonra Azərbaycana səfərlərindən danışaraq, şahidi olduğu mənzərələrdən söz açıb. Bildirilib ki, ermənilər işğal olunmuş ərazilərdə təkcə Azərbaycan mədəni irs abidələrini deyil, həmçinin özlərinin də mənsub olduqları xristian dini abidələrini də dağıdıblar.

Filmin rejissoru Anastasiya Lavrina uzun müddət ictimaiyyətdən gizlədilmiş vəziyyətlə bağlı həqiqəti üzə çıxarmaq məqsədi ilə bu filmi hazırladığını diqqətə çatdırıb. O, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasına dair 4 qətnaməsinə baxmayaraq, münaqişənin yalnız 2020-ci ildə hərbi yolla həll olunduğunu deyib. Qeyd olunub ki, işğaldan azad edilmiş Azərbaycan torpaqlarında törədilmiş dağıntıların miqyası onu görənləri dəhşətə gətirir. A.Lavrina bildirib ki, sənədli filmin çəkilişində əsas məqsəd əsil həqiqəti beynəlxalq ictimaiyyətə çatdırmaqdır.

CBC televiziyasının kollektivi ilə birlikdə hazırlanmış filmdə Azərbaycanın Xocavənd rayonunda 100 il əvvəl tikilmiş pravoslav kilsəsinin tarixi və erməni separatistləri tərəfindən yararsız hala salındığı göstərilir.

A.Lavrina Azərbaycan torpaqları azad olunandan sonra həmin kilsəni ziyarət etmək istəsə də, erməni minalarına görə kilsəyə yaxın düşməyin çətin olmasından danışıb. O, multikulturalizm və tolerantlığın Azərbaycan modelinin bütün dünyada tanındığını, burada bir çox etnik qrupların nümayəndələrinin mehriban yaşadığı dünyəvi və tolerant ölkə olduğunu vurğulayıb. 44 günlük Vətən müharibəsi dövründə ölkədəki müxtəlif dini konfessiyaların nümayəndələrinin həmrəylik nümayiş etdirdiyini, Vətənin azadlığı və rifahı uğrunda mübarizə apardıqlarını diqqətə çatdırıb. Vurğulanıb ki, 44 günlük Vətən müharibəsi zamanı bütün etnik qrupların nümayəndələri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşərək, ölkənin ərazi bütövlüyünün müdafiəsinə qalxıblar.

O, Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasını istədiyini deyib.

Rəsmi hissədən sonra “Erməni separatistləri tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri” adlı sənədli film nümayiş olunub. Filmdən sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# *Təbrizdə 28 May - Müstəqillik Günü qeyd olunub*

**28 May - Müstəqillik Günü münasibətilə Təbriz şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğu tərəfindən qəbul təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, qəbulda İranın Şərqi Azərbaycan Vilayətinin valisi Zeynəlabedin Rəzəvi Xorrəm, Ərdəbil valisinin siyasi, təhlükəsizlik və ictimai məsələlər üzrə müavini Reza Qasemyan və digər rəsmi şəxslər, yerli mətbuat və ictimaiyyət nümayəndələri, Təbrizdə yaşayan Azərbaycan vətəndaşları iştirak ediblər.

Dövlət himnləri səsləndikdən sonra Baş konsul Əliyənnağı Hüseynov çıxış edib.

Qeyd olunub ki, bu il müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 104 illiyi tamam olur. İki ilə yaxın mövcud olmuş AXC zəngin dövlət quruculuğu təcrübəsi ilə Azərbaycanın milli dövlətçilik tarixində silinməz izlər qoyub. 1991-ci il oktyabrın 18-də Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa edib.

Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olub. AXC 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra süquta uğrayıb. Süqut edən Xalq Cümhuriyyətinin üçrəngli bayrağını yenidən ucaldan və Azərbaycan xalqının əbədi müstəqilli-



yini təmin edən şəxsiyyət isə xalqımızın ümummilli lideri Heydər Əliyev oldu. Ümummilli Liderin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında alınmış tarixi qərara əsasən Azərbaycanın müstəqilliyinin əsas atributlarından olan AXC-in üçrəngli bayrağı qəbul olundu və bu bayraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda yüksəldi.

"Siyasi təcrübə onu göstərdi ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir. Danılmaz faktdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində yenicə müstəqillik əldə etmiş Azərbaycan daxili və xarici faktorların təsiri ilə dağılmaq ərəfəsində idi. Lakin Heydər Əliyevin hakimiyyətə qayıdışı bunun qarşısını aldı. Ulu Öndər ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, uğurlu xarici siyasət kursu müəyyənləşdirdi",- deyə Baş konsul vurğulayıb.

Bu gün Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına uyğun davam etdirilir. Azərbaycan beynəlxalq aləmdə turizm, tolerantlıq diyarı, idman ölkəsi olmaqla yanaşı, eyni zamanda innovasiyalar və informasiya-kommunikasiya texnologiyaları ölkəsi kimi də tanınmaqdadır. 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsi nəticəsində 30 ilə yaxın erməni işğal altında qalan Qarabağ azad edildi. Artıq Azərbaycan ikinci ildir ki, 28 May - Müstəqillik Gününü öz ərazi bütövlüyünü təmin etmiş qalib dövlət kimi qeyd edir.

İranın Şərqi Azərbaycan vilayətinin valisi Zeynəlabedin Rəzəvi Xorrəm çıxış edərək Müstəqillik Günü və Azərbaycan Respublikasının ərazilərinin azad edilməsi münasibətilə öz təbriklərini çatdırıb.

Vali mədəni, tarixi və dini ortaqlıqlar ilə iki ölkə xalqlarının biri-birinə bağlı olduğunu, İranın Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu diqqətə çatdırıb. İki ölkə arasında bir çox sahələrdə yaxşı əlaqələr mövcud olduğunu qeyd edib. Bakıda keçirilən İran-Azərbaycan müştərəyə iqtisadi komissiyasının iclasında da bir çox sahələrdə o cümlədən, nəqliyyat, maliyyə, bank, kommunikasiya və digər sahələrdə razılaşmalar əldə edildiyini bildirib.

Sonda Müstəqillik Günü ilə bağlı videoçarx nümayiş etdirilib.

# Rüstəm Qasemi: İran-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir

Prezident İbrahim Rəisinin göstərişinə əsasən, qarşıdakı 20 gün müddətində İran ərazisindən keçməklə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək körpülərin tikintisinə başlanacaq.

Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın yol və şəhərsalma naziri Rüstəm Qasemi deyib. O bildirib ki, inşa ediləcək körpülər və kommunikasiya xətləri hər iki dövlətin milli maraqlarını əks etdirir. Bu infrastruktur layihələr təkcə İran ilə Azərbaycanın deyil, regiondakı bütün dövlətlərin iqtisadi inkişafına böyük təkan verəcək.

Nazir nəzərə çatdırıb ki, Qarabağın işğaldan azad edilməsi regionda yeni reallıqlar yaradıb və İran ilə Azərbaycanın iqtisadi əməkdaşlığına müsbət təsir göstərib. Hazırda Qarabağda birgə sənaye və istehsal məhsullarının istehsalı üçün birgə müəssisələrin yaradılması istiqamətində danışıqlar aparılır. İranın iş adamları və şirkətlər Qarabağın bərpasında iştirak edəcəklər. İran şirkətləri Qarabağa sərmayə yatırmaqla yanaşı, məktəb, xəstəxana və digər ictimai xarakterli binaların tikintisində iştirak edəcəklər. İşğaldan azad olunan Azərbaycan



rayonları İran sərhədində yerləşir və burada yaradılacaq birgə müəssisələr qarşılıqlı əlaqələrin inkişafına təkan verməklə yanaşı, sərhədyanı regionların sosial-iqtisadi inkişafını da təmin edəcək.

Rüstəm Qasemi bildirib ki, İran ilə Azərbaycan arasındakı faydalı əməkdaşlıq əlaqələri yalnız işğaldan azad olunan ərazilərdə birgə müəssisə yaratmaqla məhdudlaşmır. Hər iki dövlət beynəlxalq əhəmiyyət daşıyan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında da iştirak edir. Bu dəhlizə aid olan avtomobil, dəniz və dəmir yolları İran və Azərbaycan ərazisindən keçir ki, bu da tranzit sahəsində əməkdaşlığın artmasını şərtləndirir. Asiyadan Avropaya və əks istiqamətə daşınan yüklər tez və təhlükəsiz şəkildə iki qonşu və dost dövlətin ərazisindən keçməklə onlara əlavə valyuta gəliri gətirəcək.

Rüstəm Qasemi İran və Azərbaycan prezidentlərinin Aşqabad görüşünə toxunaraq qeyd edib ki, bu görüş münasibətlərimizdə yeni səhifə açıb. Həmin görüş çərçivəsində Türkmənistan qazının İran ərazisindən tranzit keçməklə Azərbaycana çatdırılması perspektivdə əlaqələrin uğurlu olacağından xəbər verir.

Nazirin sözlərinə görə, hökumət nümayəndələrinin qarşılıqlı səfərlərinin intensiv xarakter alması da əlaqələrin güclənməsi üçün faydalıdır. Səfərlər zamanı bütün məsələlər müzakirə olunur və meydana çıxan problemlər həllini tapır.

Bu gün İran üçün yaxın qonşuları ilə əlaqələri inkişaf etdirmək prioritet istiqamətdir. İran bütün sahələrdə Azərbaycan ilə əməkdaşlıq etməyə hazırdır. Gələcək üçün yeni layihələr və planlar hazırlanır ki, dostluq və qardaşlıq münasibətlərimiz daha da inkişaf etsin.



# Cenevrə Universitetində Azərbaycan tarixi və mədəniyyətinin təbliğinə xidmət edən tədbir keçirilib

Cenevrədə yeni təsis olunmuş Xaricdə Yaşayan Azərbaycan Akademikləri Assosiasiyası 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan tarixi və mədəniyyətinin təbliğinə xidmət edən tədbir keçirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin dəstəyi ilə keçirilən tədbir Cenevrə Universitetində baş tutub. Tədbirdə Azərbaycan mətbəxinin ləziz təamları, eləcə də milli suve-



nirlər, kitab və informasiya materialları təqdim olunub.

Təşkilatdan bildirilib ki, bu kimi tədbirlər yaxın gələcəkdə İsveçrədəki ali təhsil ocaqları, beyin mərkəzləri, ictimai və beynəlxalq təşkilatlar, eləcə də İsveçrənin yerli qurumları ilə əməkdaşlıq çərçivəsində keçiriləcəkdir.

Qeyd edək ki, 1559-cu ildə əsası qoyulan Cenevrə Universiteti dünya miqyasında tanınır və dünyanın ən yaxşı 100 universiteti arasında yer alır. Burada 4500-dən çox müəllim, professor heyəti çalışır və dünyanın 150-dən çox ölkəsindən 20 minədək tələbə təhsil alır.

# BERNAMA agentliyi Azərbaycan Respublikasının uğurlarından bəhs edən geniş məqalə yayıb

**Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycan Respublikasının uğurlarından bəhs edən geniş məqalə yayıb.**

AZƏRTAC xəbər verir ki, bu yaxınlarda qeyd edilən Müstəqillik Gününə həsr olunan məqalənin müəllifi agentliyin diplomatik xəbərlər üzrə jurnalisti Rajamanikam Raviçandradır. Müəllif məqaləni Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudovla apardığı söhbət əsasında qələmə alıb.




Yazıda Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolundan bəhs edilir, ulu öndər Heydər Əliyevin müdrik siyasəti və həyata keçirdiyi hərtərəfli islahatlar, əsasını qoyduğu neft strategiyası nəticəsində Azərbaycanın dövlətçilik təməlinin iqtisadi əsaslarının möhkəmləndirildiyi, 2003-cü ildən sonra Azərbaycan Prezidenti İlham Əliyevin strateji zəkası nəticəsində ölkəmizin dinamik inkişaf yolunda uğurla irəlilədiyi və regionda lider dövlətə çevrildiyi qeyd edilib.

Müəllif 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətindən bəhs edərək, azərbaycanlıların müsəlman türk dünyası tarixində ilk dəfə parlamentli respublika qurmağa nail olduqlarını, bu mütərəqqi respublikanın vətəndaş azadlığı və bərabərliyi prinsipləri əsasında inşa edildiyini, hətta bir sıra Qərb ölkələrindən əvvəl qadınlara seçki hüquqları verdiyini diqqətə çatdırıb.

Məqalədə səfir İ.Davudova istinadla düşmən tapdağındakı torpaqlarımızın 2020-ci ildə Vətən müharibəsi nəticəsində işğaldan azad olunduğu qeyd edilərək, bu gün Azərbaycanın regionda və beynəlxalq müstəvidə sülhə, təhlükəsizliyə, dövlətlərin ərazi bütövlüyünə və suveren hüquqlarına ən qətiyyətli və güclü dəstək verən ölkələrdən biri olduğu vurğulanıb.

Yazıda Azərbaycan-Malayziya münasibətlərinə də yer verilib. Qeyd edilib ki, 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Malayziya Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub. Azərbaycan və Malayziya arasında inkişaf edən çoxtərəfli əməkdaşlıq münasibətlərinə diqqət çəkilərək, ölkələrimizin ikitərəfli müstəvidə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı marağa və hörmətə əsaslanan səmərəli əlaqələrini davam etdirdiyi qeyd olunub. Buna misal kimi, iki ölkənin İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi nüfuzlu beynəlxalq institutlarda yaxın əməkdaşlıq etdiyi nəzərə çatdırılıb.

Bu gün Azərbaycan və Malayziya arasında iqtisadi əməkdaşlıq sahəsində geniş potensialın mövcudluğuna diqqət yönəldilərək, bu istiqamətdə iki ölkənin sahibkarlarının daha fəal səylərinin önəmi vurğulanıb. Azərbaycanda aparılan böyükmiqyaslı bərpa və quruculuq işlərinə toxunularaq, malayziyalı şirkət və sahibkarlar üçün geniş investisiya imkanlarının olduğu qeyd edilib. Bununla yanaşı, qarşıdakı dövrdə iki ölkə arasında elm, incəsənət, təhsil və turizm sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş potensialın olduğu bildirilib.

# “Beynəlxalq nəqliyyat dəhlizləri üçün strateji perspektivlər və yeni imkanlar” adlı sessiya təşkil olunub

İyunun 1-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində “Beynəlxalq nəqliyyat dəhlizləri üçün strateji perspektivlər və yeni imkanlar” sessiyası təşkil olunub.

AZƏRTAC xəbər verir ki, layihə rəhbəri Fərrux Əhmədovun moderatorluğu ilə keçən sessiyada beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafının iqtisadiyyatların səmərəliliyinin artırılmasına müsbət təsir göstərdiyi qeyd edilib.




TRACECA Hökumətlərarası Komissiyanın Azərbaycandakı milli katibi Rüfət Bayramov bildirib ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli-coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. O, TRACECA coğrafiyasının genişləndirilməsinin dəhlizə əlavə yük axınlarının cəlb edilməsinə töhfə verə biləcəyini söyləyib.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TİTR) baş katibi Qaydar Abdikerimov mövcud ticarət yollarının şaxələndirilməsinin bütün tərəflərin maraqlarına xidmət etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, qlobal iqtisadiyyatın aktivliyinin qorunub saxlanması maraqlı tərəflərin yeni nəqliyyat və logistika marşrutları tapmasından asılı olacaq.

# Əlcəzair KİV-də Xəzər Neft və Qaz Sərgisi barədə məqalə dərc edilib

**Afrikanın nüfuzlu “Afrikecomomy” nəşrində və Əlcəzairin “Əl Hivar”, “Əl Hərir” portallarında Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi barədə məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Əlcəzairdəki müvəqqəti işlər vəkili Rəfail Bağırovun müəllifi olduğu məqalədə COVID-19 pandemiyası ilə əlaqədar ikiillik fasilədən sonra keçirilən sərginin əhəmiyyətindən bəhs olunub. Müəllif diqqətə çatdırıb ki, Azərbaycan müstəqillik illərində neft-qaz sektoruna ciddi sərmayələr cəlb edib və daxili tələbatı təmin etməklə yanaşı, region ölkələri və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlayıb. Ölkəmiz daim Xəzər dənizinin əməkdaşlıq və investisiya mərkəzinə çevrilməsinə çalışıb, bu məqsədlə nüfuzlu energetika şirkətləri ilə birgə nəhəng layihələr həyata keçirib. Azərbaycan neftinin və təbii qazının dünya bazarlartına çatdırılması üçün böyük boru kəmərləri inşa edilib, Cənub Qaz Dəhlizi kimi nəhəng layihə reallığa çevrilib. Məqalədə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP layihələri barədə ətraflı məlumat verilib



## “AZƏRBAYCAN DƏMİRYOLÇUSU” QƏZETİNƏ ABUNƏ YAZILIŞI DAVAM EDİR




**ƏZİZ OXUCULAR!**

2022-ci ilin 2-ci yarısı üçün respublika və xarici ölkələrin qəzet və jurnallarına abunə yazılış başlandı.

“Azərbaycan dəmiryolçusu” qəzeti də bu kampaniyada öz sadiq oxucularına arxalanıb iştirak edir.

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətində baş verən yeniliklərdən, dəmiryolçuların qayğı və problemlərindən xəbərdar olmaq istəyirsinizsə, “Azərbaycan dəmiryolçusu” qəzetinə abunəçi olun.

**İndeks: 0006. Altı aylıq abunə qiyməti – 2 manat 40 qəpik.**

**“Azərbaycan dəmiryolçusu” qəzetinə abunəçi olmağa tələsin.**




**ALLAH RƏHMƏT ELƏSİN**

“Azərbaycan Dəmir Yolları” QSC-nin Mətbuat Katibliyi şöbəsinin kollektivi şöbənin redaktoru Gülnaz Əliyevaya, qardaşı, Ali Məhkəmənin hakimi

**FƏRHAD KAZIM OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Redaktor:
Vasif SÜLEYMAN

Yaradıcıl heyət:
Gülnaz ƏLİYEVA (redaktor )
Elbariz Məmmədli (müxbir)
Zahid Qurbanov (fotoqraf

Ünvanımız:Bakı, Azd 371010. D. Əliyeva küçəsi, 230.
“Azərbaycan Dəmir Yolları” QSC
Telefonlar: 499-43-19; 499-63-91
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlmə yə bilər.
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş,
“Tuna” Nəşriyyat və Poliqrafiya MMC-nin mətbəəsində çap olunmuşdur

Lisenziya ABN 022560.
Qeydiyyat nömrəsi B 360
Bizim materiallardan istifadə edərkən qəzetə istinad edin.
www.ady.az
Sayı 600. Sifariş